# Novruz xalqımızın əziz bayramıdır

*Bayramlar Onların bir çoxunu insanlar təbiət, cəmiyyət üzərində qələbələrini xatırlatmaq üçün yaradıblar. Lakin bu bayramlar sırasında elələri də var ki, taleyimiz kimi bizə təmənnasız bəxş olunub. Bu bayramların təntənəsinə insan daxili, ruhi oyanışın təsiri ilə hazırlaşır. Xalqımızın belə böyük bayramlarından biri də Novruz bayramıdır. Novruzu bəzən islam dini tarixində baş verən əlamətdar hadisələrlə əlaqələndirmək cəhdləri də olub. Ancaq mənbələr sübut edir ki, Novruz bayramının qeyd olunması ən azı islam tarixindən min il əvvəllərdən başlanmışdır. Eyni zamanda islamın bir sıra təriqət və cərəyanları dinlə əlaqəli olmadığına görə Novruzun bayram edilməsinə müsbət yanaşmır.*

Tarixi, çox qədim olan Novruz bayramı hər il xalqımız tərəfindən böyük təntənə ilə qeyd olunur. Novruz bayramı təzə ili, baharın ilk gününü qarşılamaq deməkdir. Günəş dünyanın cənub yarımkürəsindən şimal yarımkürəsinə keçdiyi vaxt gecə ilə gündüz bərabərləşir. Bu vaxt qış qurtarır, Yaz fəsli başlayır. Elə Novruz bayramı da bu gündə keçirilir. Deməli, Novruz bayramı əslində yazın, baharın ilk günü, təbiətin canlanması, torpağın oyanması bayramıdır. Adamlar novruz bayramını şən əhval-ruhiyyə ilə qarşılayarlar.






Əsrlərin sınağından çıxmış mənəvi dəyərlərimizi, adət-ənənələrimizi özündə yaşadan Novruz insanlar arasında birliyin və mehribanlığın möhkəmləndirilməsi, onların bir-birinə mərhəmət və diqqət göstərməsi kimi sağlam bir təməl yaratmışdır. Novruz bayramı sağlamlığın, firavanlığın başlanğıcıdır. Novruz başdan-başa ruh yüksəkliyi, əmək coşqunluğu, torpağa, insana məhəbbət bayramıdır. Elə bu məhəbbətlə bağlı yaranmış Novruz tapmaca, atalar sözü və adətlərində ulu babalarımızın müdrik dünya görüşü, humanist baxışları, həlim qayğıkeş təbiəti özünü göstərir.

Xalqın adətinə görə bayram günü süfrə dolu olmalı, qız-gəlin təzə paltar geyməliydir, evlərdə hanalar qoyulur, bayram xalçaları toxuyardılar.

Novruz bayramının Novruz süfrəsi, Novruz xonçası var. Bu süfrəni hazırlamağa axır çərşənbədən başlayırlar. Süfrəyə qoymaq üçün müxtəlif şirniyyatlar bişirilir. Bunlara şəkərbura, paxlava, şəkərçörəyi və s. aiddir.

Bayram süfrəsində adlarını çəkdiyimiz şirniyyatlardan başqa noğul, nabat, püstə, badam, tut qurusu, kişmiş, fındıq, qoz, boyanmış yumurta, alma qurusu, iydə və s, çərəzlər olur. Bəzən axır çərşənbə həm də yeddiləvin gecəsi adlanır. Bu zaman süfrədə yeddi növ çərəz olmalıdır.

Çox vaxt yeddi sin (ərəb əlifbasında s hərfinin bir növü) süfrəsi də açılır. Yeddi sin süfrəsi sin "s" hərfi ilə başlayan sirkə (dad və zövqə işarədir), sarımsaq (sağlamlıq), səbzə(ümid), sumax (bərəkət), sikkə (varlıq), saat( uzun ömür) və su (aydınlıq) deməkdir. Süfrənin ortasında qırağı şamlarla bəzədilmiş səməni qoyulur.

Azərbaycanda lap qədimlərdən novruz şənliklərində "Sayaçı", "Yuğlama", "Yel baba", "Cütçü şumu", "Kəvkəs", "Kosa-kosa", "Qaravəlli" və s. kimi milli xalq oyunları keçirilib. Bütün bunlarla birlikdə "Kəndirbaz", "Masqara" tamaşaları hazırlanır.

Bu oyunların içərisində ən geniş yayılmışı "Kosa-kosa" oyunudur. Cavanlar bir yerə toplaşıb, zirək, hazırcavab bir oğlana dəri kürkü tərsinə geydirib, başına uzun motal papaq taxıb mahnı oxuya-oxuya gəzirlər.

Bayram şənliyində keçirilən bu oyunlar özünəməxsus yer tutur. Novruz bayramının çərşənbələrində həyətlərdə tongal yandırılır. İnanca görə tonqalın üstündən hoppanmaqla köhnə ilin azar-bezarı da yandırılır. Odun üstündən hoppananlar nəğmələr də oxuyurlar.

Novruz bayramında qulaq falına çıxmaq adəti də vardır. Qaranlıq düşəndə niyyət tutub qonşuların danışıqlarına qulaq asmağa gedirlər. Ilk eşidilən söz tutulmuş niyyətə uyğun olaraq yozulur.

Odur ki, Novruz bayramı axşamında evlərdə könül açan, ümid verən söhbətlər danışılmalıdır. Novruz bayramında ən çox yayılmış adətlərdən biri də qurşaq salmaq və ya papaq atmaqdır. Daha çox uşaqlar, cavanlar qaranlıq düşəndə evbəev gəzib bacadan, pəncərədən qurşaq sallayıb, qapılara papaq atıb bayram payı alırdılar.

Onların qurşaqlarına, papağına qovurqa, boyanmış yumurta, alma, armud, ərik, qavalı qurusu, cürbəcür şirniyyatlar qoyardılar. Bu adət indi də papaq atmaqla davam edir. Azərbaycanın böyük şairi Şəhriyar da " Heydərbabaya salam" əsərində bu qurşaq salladan danışıb:

Novruz bayramında kin-küdürət unudulmalıdır. Heç kəs gərək bir-biri ilə küsülü qalmasın.

Novruz bayramı yadda bolluq, xeyirxahlıq, gözəllik bayramı kimi qalır.

✍ **Qüdrət SƏMƏDOV.**
**«Qəbələ».**

# Əsas kapitala 2 milyard manatdan çox vəsait yönəldilib

***2017-ci ilin yanvar-fevral aylarında ölkənin iqtisadi və sosial sahələrinin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala yönəldilmiş 2 milyard 093,7 milyon manat vəsaitin 1 milyard 503,3 milyon manatı neft sektoruna, 590,4 milyon manatı isə qeyri-neft sektoruna yatırılıb.***

Ümumi sərmayənin 69,5 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf edilib.

İstifadə olunmuş vəsaitin 89,2 faizi məhsul istehsalı obyektlərinin, 8,1 faizi xidmət sahələri üzrə obyektlərin, 2,7 faizi isə ümumi sahəsi 209,1 min kvadratmetr olan yaşayış evlərinin tikintisinə sərf olunub. Daxili mənbələrdən əsas kapitala yönəldilmiş vəsait ümumi sərmayənin 32,9 faizini təşkil edib.



Əsas kapitala yönəldilmiş sərmayənin ümumi dəyərində müəssisə və təşkilatların vəsaitləri 77,2 faiz, bank kreditləri 11,4 faiz, büdcə vəsaitləri 8,0 faiz, əhalinin şəxsi vəsaitləri 2,7 faiz, büdcədənkənar fondların vəsaitləri isə 0,7 faiz təşkil edib.

# Tibbi müayinə davam edir



*Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin tapşırığına əsasən rayonumuzun səhiyyə ocaqlarında 18 yaşdan yuxarı əhalinin tibbi müayinəsi davam edir.*

Mart ayının 15-ə qədər 20 min nəfərə yaxın vətəndaş müayinədən keçmişdir. Ehtiyacı olan 114 nəfər stasionar, 485 nəfər ambulator müalicəyə cəlb olunmuş, 65 nəfər Bakı və digər şəhərlərin xüsusi ixtisaslaşdırılmış tibbi müəssisələrinə müayinə və müalicə üçün göndərilmişdir.

Tibbi müayinədən keçənlər bu humanist aksiyanın keçirilməsinrə göstərdiyi diqqət və qayğıya görə ölkə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildirirlər. Böyük Vətən Müharibəsi iştirakçısı Nurəddin Tağızadə deyir: «Əhalinin sağlamlığı üçün göstərdiyi qayğıya görə möhtərəm Prezidentimiz İlham Əliyevə minnətdaram.

Burada tibb işçilərinin də böyük zəhməti var. İşlər çox ahəngdar təşkil olunub. Onlara da çox sağ olun deyirəm».

**Səhrab Umuyev.**
**«Qəbələ».**

Vətənimiz Azərbaycan tarixən zəngin yeraltı və yerüstü sərvətlərə, təbii ehtiyatlara malik bir məkan olmuşdur. Onun coğrafi mövqeyi, iqlimi burada qədim insanların məskən salmasına səbəb olmuşdur. Azərbaycan dünyanın ən qədim yaşayaş məkanlarından biri hesab olunur. Bunu tarixi faktlar da sübut edir. Qarabağda «Azıx» mağarasında və ölkəmizin digər bölgələrində aparılan aprxeoloji tədqiqatlar nəticəsində qədim insanların yaşayış məskənləri müəyyənləşdirilmişdir. Bütün bunlar onu deməyə əsas verir ki, Azərbaycan ərazisində tayfa birlikləri və dövlətlərin yaranma tarixi də qədimdir və 3-5 min il bundan əvvələ aid edilir. Lakin Azərbaycanın zənginliyi, strateji cəhətdən əlverişli bir yerdə yerləşməsi, «qızıl körpü» rolunu oynaması tarixən bu məkanda yaşayan xalqların başına minbir fəlakətin gətirilməsinə səbəb olmuşdur. Böyük gücə, qüdrətə malik olan işğalçı dövlətlər və imperiyalar bu gözəl diyar uğrunda aramsız müharibələr aparmış, yaşayış məskənlərini dağıtmış, maddi və mənəvi sərvətlərini talamış, xalqını didərgin salmışlar.

# Tariximizlə öyünür, bu günümüzlə qürur duyuruq

*Əmirxan Burzuyev təqaüddə olan müəllimdir uzun illər müəllimlik etmiş, Əmirvan kənd tam orta məktəbinin direktoru işləmişdir. Bir müəllim, ziyalı, ictimai fəal kimi kənd camaatı arasında nüfuz qazanıb. Çoxlu sayda şeirlərin, bədii yazıların müəllifidir. Əsasən yurdumuzun təbii gözəlliklərinə həsr olunmuş şeirləri oxunaqlıdır. Redaksiymıza təqdim etdiyi «Tariximizlə öyünür, bu gunumuzlə qürur duyuruq» adlı yazıda ölkəmizin keşməkeşli tarixinə qısa nəzər salınmış, bu günündən söhbət açılmışdır.*

Azərbaycan xalqını məhv etməklə ərazisinə sahib olmaq onların əsas məqsədləri olmuşdur. Lakin Azərbaycanın vətənpərvər, igid xalqı zaman-zaman vətən naminə əldə silah tuta bilən övladlarını səfərbər etmiş, düşmənlərə təslim olmamaq üçün qəhrəmanlıqla mübarizə aparmışdır. Bütün bunlara baxmayaraq təəssüflə qeyd etməliyik ki, Vətənimiz işğalçı dövlətlər tərəfindən zaman-zaman parçalanmağa məruz qalmışdır.

XIX əsrin birinci yarısında—1813-cü və 1828-ci illərdə Azərbaycan ərazisinin «Gülüstan» və «Türkmənçay» sülh müqavilələri ilə çar Rusiyası və İran dövlətləri arasında bölüşdürülməsi Vətənimizin başına gətirilən ən böyük faciələrin başlıcası hesab edilməlidir.

Araz çayı boyunca çəkilmiş «tikanlı məftillər» uzun müddət «Böyük Çin səddi» rolunu oynayaraq bütövlükdə Azərbaycan xalqını bir-birinə həsrət qoymaqla yanaşı onun iqtisadi və mənəvi cəhətdən də inkişafına ağır zərbə vurmuşdur.

Həmin dövrdə xalqımız həm cənubda, həm də şimali Azərbaycanda dəfələrlə azadlıq mübarizəsinə qalxmış, əsarət zəncirini qırmaq üçün cəhdlər göstərmişdir. Həmin cəhdlər uzun müddət uğursuzluğa düçar olsa da nəticəsiz qalmamışdır.

**(Ardı 7-ci səhifədə).**